ÜMUMMİLLİ LİDERİN ƏZİZ XATİRƏSİ BÖYÜK EHTİRAMLA YAD EDİLİB

Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyev XX əsrin ikinci yarısından başlayaraq Azərbaycanın ictimai-siyasi həyatına görkəmli dövlət rəhbəri kimi daxil olmuşdur. 1969-cu ildən başlayaraq bu böyük şəxsiyyətin keçdiyi həyat yolu, çoxşaxəli və məqsədyönlü fəaliyyəti Azərbaycanın sürətli inkişafına güclü təkan vermiş, ölkəmizi öz hüdudlarından kənarda tanıtmış, beynəlxalq miqyasda onun nüfuzunu xeyli dərəcədə yüksəltmişdir.

Heydər Əliyevin adı Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmışdır. Bu böyük şəxsiyyətin doğum günü hər il təntənə ilə qeyd edilir. Ulu öndərin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilmişdir. Bölgə müxbirlərinin hazırladıqları materialları qəzetimizin oxucularına təqdim edirik:

GƏNCƏ

Gəncə Şəhər İcra Hakimiyyətinin, YAP Gəncə şəhər təşkilatının təşkilatçılığı, Gəncə Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar olaraq "Ulu Öndərin Gəncədəki izləri" adlı konfrans keçirilib. Konfransda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov, Türkiyənin və Gürcüstanın Gəncədəki Baş konsulları Zeki Öztürk, Nikolos İaşvili, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, təşkilat və müəssisə rəhbərləri, şəhid ailələri, müharibə iştirakçıları, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbir iştirakçıları ilk öncə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər gül dəstələri düzüblər. Sonra qonaqlar Heydər Əliyev Mərkəzində yerləşən ulu öndərin adını daşıyan muzeyə baxış keçiriblər. Rəsmi hissə Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tədbirdə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib. "Ulu Öndərin Gəncədəki izləri" adlı konfransda Heydər Əliyevlə bilavasitə təmasda olan bir qrup ziyalılar onunla bağlı xatirələrini bölüşüblər.

Görüşdə çıxış edən şəhər rəhbəri Niyazi Bayramov ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinin, elm və təhsilinin inkişafındakı misilsiz xidmətlərindən, bununla yanaşı, onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən bəhs edib. Dəyirmi masada çıxışlar zamanı ulu öndərin xalqımızın rifahı naminə göstərdiyi tarixi xidmətlər bir daha diqqətə çatdırılıb, ümummilli liderin irsinin hərtərəfli tədqiqinin gələcək nəsillər üçün böyük miras olduğu vurğulanıb.

YEVLAX

Yevlaxda xalqımızın ümummilli lideri, dahi şəxsiyyət, əbədiyaşar insan Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə rayon məktəblilərinin möhtəşəm hərbi paradı keçirilib. Paradda iştirak edən hərbi geyimli yüzlərlə məktəbli Azərbaycan Silahlı Qüvvələrinin arsenalında olan texnikaların maketlərinin müşayiəti ilə şəhərin mərkəzi prospektindəki ümummilli lider Heydər Əliyevin abidəsinin qarşısından keçiblər. Şuşa qalasının maketinin peşəkar aktyorların canlandırdığı Qarabağ xanı Pənahəli xanın, Xan qızı Xurşidbanu Natəvanın obrazlarının nümayişi tədbirə xüsusi rəng qatdı. Hərbi marşların sədaları altında keçən paradda Yevlax məktəbliləri ulu öndərə olan sevgilərini, məhəbbətlərini bir daha nümayiş etdirdilər.

Yevlax sakinlərinin və rayon ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi paradda əsl bayram əhvali-ruhiyyəsi yaşandı.

LƏNKƏRAN

Müasir Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar Lənkəran rayonunda silsilə tədbirlər keçirilib.

Mayın 10-da səhər saatlarından başlayaraq Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, əmək kollektivlərinin və ictimaiyyətin nümayəndələri ümummilli lider Heydər Əliyevin Lənkəran şəhərinin mərkəzi meydanında ucaldılmış abidəsi önünə gül dəstələri düzərək əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Lənkəran şəhərinin Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotostendə baxış keçirilib. Tədbir mədəniyyət mərkəzində davam etdirilib. Müdrik rəhbərin mənalı ömür yolu, çoxşaxəli, zəngin dövlətçilik fəaliyyəti haqqında videoçarx nümayiş olunub.

Tədbirdə ulu öndərin müəyyənləşdirdiyi siyasi kursun Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin sürətlə inkişaf etdiyi, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun tarixi Zəfərə imza ataraq xalqımızın torpaq həsrətinə son qoyduğu diqqətə çatdırılıb.

MASALLI

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, icra aparatının kollektivi, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, müharibə və əmək veteranları, gənclər, ictimaiyyətin nümayəndələri ümummilli liderin abidəsi önünə gül dəstələri düzərək parlaq xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Mərasimdə böyük xilaskara tükənməz el məhəbbəti ifadə olunub. Ziyarətə gələnlər bildiriblər ki, Heydər Əliyev ideyalarına sədaqət insanların qəlbində və əməllərində yaşayır. Azərbaycanın dinamik inkişafı, dünyanın qabaqcıl ölkələri arasında layiqli yer tutması ulu öndərin siyasi kursunun ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla, yüksək işgüzarlıqla davam etdirilməsinin parlaq təzahürüdür.

Tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində məktəblilərin əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Masallı Rayon İcra Hakimiyyəti və Masallı Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə şəhərin mədəniyyət mərkəzində konsert proqramı təşkil olunub. Əvvəl ulu öndərin və ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olmuş Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov tədbiri açaraq, ümummilli liderin həyatı və siyasi fəaliyyətinin əsas məqamlarından danışıb.

Mərasim konsert proqramı ilə yekunlaşıb.

ASTARA

Ümummilli lider Heydər Əliyevin anadan olmasından 99 il ötür. Ulu öndərin doğum günü ilə əlaqədar rayonun ümumtəhsil məktəblərində, Astara Pedaqoji Kollecində, idarə və müəssisələrdə yığıncaqlar, elmi-praktiki konfranslar, intellektual oyunlar, müsabiqələr, idman yarışları keçirilib.

Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, icra hakimiyyəti aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, əmək kollektivlərinin rayon ictimaiyyətinin nümayəndələri Heydər Əliyev adına parka gələrək ulu öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində dünyaşöhrətli azərbaycanlı dahinin ömür yolunu və Astara rayonuna səfərlərini əks etdirən fotostendlə tanış olublar. Sonra ulu öndərin mənalı ömür yolundan bəhs edən film nümayiş olunub.

Mərasimdə qeyd olunub ki, dahi rəhbər cismən aramızda olmasa da onun ideyaları, zəngin nəzəri irsi daim yaşayır. Müstəqil dövlətimiz üçün müəyyənləşdirdiyi uzunmüddətli inkişaf strategiyası Azərbaycanı tərəqqiyə, işıqlı gələcəyə aparır.

Müdrik rəhbərin Astara və astaralılar haqqında söylədiyi qiymətli fikirlər həmişə sonsuz iftixar və minnətdarlıq hisslərilə xatırlanır. Astaralılar Heydər Əliyevin parlaq xatirəsini daim əziz tutur, qəlblərində böyük məhəbbətlə yaşadırlar.

LERİK

Lerik şəhərinin mərkəzi meydanında böyük izdiham vardı. Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ağsaqqallar, ziyalılar, gənclər, rayon sakinləri ulu öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Sonra Heydər Əliyev Mərkəzində elmi-praktik konfrans keçirilib. Tədbir iştirakçıları əvvəl ulu öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar, sənədli filmə baxıblar.

Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev konfransda məruzə edərək bildirib ki, ölkəmizin ictimai-siyasi həyatında, dövlətçilik tarixində müstəsna rol oynamış Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmiş, ümumxalq sevgisi qazanmışdır. İllər ötdükcə Heydər Əliyev fenomeninə maraq daha da artır.

Bütün həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin zəngin, titanik fəaliyyəti əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Hələ neçə-neçə nəsillər bu zəngin siyasi irsdən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır. Bu irsi yaşatmaq, gələcək nəslə olduğu kimi ötürmək hər birimizin borcudur, - deyə Cəlil Baxşıyev bildirib.

Konfransda rayon prokuroru Akif Rzayev, təhsil işçisi Zöhrab Salayev, Yeni Azərbaycan Partiyası Lerik rayon təşkilatının sədri Malik Mirzəyev, rayon veteranlar şurasının sədri Hidayət Bəşirov çıxış edərək ümummilli liderin əsasını qoyduğu inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini, dövlətçiliyin daha da möhkəmləndirilməsinə, xalqın həyat səviyyəsinin yüksəlməsinə xidmət edən çoxsaylı dövlət proqramlarının, struktur və hüquqi islahatların uğurla həyata keçirildiyini, əhalinin rifah halının gündən-günə yaxşılaşdığını diqqətə çatdırıblar.

YARDIMLI

Yardımlıda xalqımızın böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü təntənəli şəkildə qeyd edilib. Rayon icra hakimiyyətinin başçısı Ayaz Əsgərov, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, Vətən müharibəsi iştirakçıları və ictimaiyyətin nümayəndələri ulu öndərin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində dahi şəxsiyyətin dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar. Mərkəzin binasında ümummilli liderin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş konfrans keçirilib.

Ulu öndərin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Konfransda Yardımlı Rayon İcra Hakimiyyəti başçısının müavini Əfsanə Məmmədova məruzə edərək Heydər Əliyevin misilsiz xidmətlərindən ətraflı danışıb. Ümummilli liderin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qüdrətli bir dövlətə çevrildiyini, işıqlı sabaha doğru inamla addımladığını vurğulayıb.

Yeni Azərbaycan Partiyası Yardımlı Rayon Təşkilatının sədri Anar Alışov, Masallı Regional Mədəniyyət İdarəsinin Yardımlı rayonu üzrə nümayəndəsi Ayaz Əliyev, təhsil işçisi Pənah Dumanoğlu ümummilli liderin şərəfli ömür yolundan, çoxşaxəli fəaliyyətindən və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində müstəsna xidmətlərindən danışıblar.

MİNGƏÇEVİR

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Mingəçevir Heydər Əliyev Mərkəzində "Heydər Əliyev - əməlləri ilə Azərbaycan tarixində əbədi iz qoyan dahi şəxsiyyət" mövzusunda Mingəçevir Şəhər İcra Hakimiyyəti və YAP Mingəçevir şəhər təşkilatı birgə elmi-nəzəri konfrans keçiriblər. Konfransdan əvvəl ulu öndərin abidəsi önünə tər gül dəstələri qoyulub. Konfransda şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov, aparatın məsul şəxsləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri, YAP şəhər ilk partiya təşkilatı sədrləri, mətbuat işçiləri iştirak ediblər. Heydər Əliyev Mərkəzinin foyesində ulu öndərə həsr olunmuş sərgiyə baxışdan sonra konfrans öz işinə başlayıb. Ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib və ulu öndər haqqında film nümayiş olunub. İlham İsmayılov konfransda çıxış edərək ulu öndərin xalqı qarşısında xidmətlərindən danışıb.

Digər çıxış edənlər ulu öndərin bir şəxsiyyət kimi fəaliyyətindən, onun Azərbaycan dövləti və xalqı qarşısında geniş xidmətlərindən, bu gün əldə edilən zəfərlərdə onun ideyalarının təntənəsindən bəhs ediblər.

NAFTALAN

Naftalan Şəhər İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Naftalan şəhər təşkilatı ilə birgə ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə "Ulu Öndər Heydər Əliyevin irsi və Müasir Azərbaycan" adlı konfrans keçirilib.

Konfrans iştirakçıları ilk öncə, ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar.

Ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov "Heydər Əliyev siyasətinin təntənəsi: Tarixi Zəfərimiz" mövzusunda çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyev Vətənə sevgisi, xalqa ehtiramı, dövlətə sadiqliyi ilə hər bir kəsə örnək olan, qeyri-adi zəkası, dühası və istedadı ilə dünyada tanınan, bütün ömrünü doğma xalqının xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr etmiş fenomen tarixi şəxsiyyətdir. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız ərazi bütövlüyünü bərpa etdi və dünyaya göstərdi ki, müqəddəs saydığımız torpaqlarımız üçün hər zaman canımızı qurban verməyə hazırıq. Həmçinin, ümummilli liderin müəyyənləşdirdiyi, konseptual əsaslarını yaratdığı xarici və daxili siyasət kursunun bu gün möhtərəm Prezidentimiz tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Digər natiqlər Azərbaycanın uğurlu inkişafının məhz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət nəticəsində təmin edildiyini bildiriblər.

Konfransda Yeni Azərbaycan Partiyasının sıralarına yeni daxil olmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub.

XAÇMAZ

Bütün şərəfli və mənalı ömrünü doğma Azərbaycanın çiçəklənməsinə həsr edən xalqımızın böyük oğlu, müstəqil dövlətimizin qurucusu, azərbaycançılıq ideyasının banisi, dünyaşöhrətli siyasətçi Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmiş, ürəklərdə özünə əbədi heykəl qoyub getmişdir.

Görkəmli dövlət xadimi, Azərbaycanın böyük oğlu Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü Xaçmaz rayonunda da böyük təntənə ilə qeyd olundu. Rayon icra hakimiyyətinin rəsmiləri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyətin çoxsaylı nümayəndələri əvvəlcə Xaçmaz şəhərinin mərkəzində ulu öndərin abidəsi önünə gül-çiçək dəstələri düzərək xatirəsini ehtiramla yad etdilər. Daha sonra Heydər Əliyev Mərkəzində ümumrayon konfransı keçirildi. Konfrans iştirakçıları öncə ulu öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Dahi şəxsiyyətin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olundu.

Konfransda çıxış edən Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev Heydər Əliyevin öz Vətəni, xalqı qarşısındakı misilsiz xidmətlərindən danışdı.

Yeni Azərbaycan Partiyası Xaçmaz Rayon Təşkilatının sədri Məhəmməd Balaqadaşov və digər çıxış edənlər ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolundan, çoxşaxəli siyasi fəaliyyətindən və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi istiqamətindəki misilsiz xidmətlərindən bəhs etdilər.

SİYƏZƏN

Siyəzəndə dahi şəxsiyyət, xalqımızın böyük oğlu ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş bir sıra tədbirlər keçirilmişdir.

Mayın 10-da rayon icra hakimiyyətinin başçısı Novruz Novruzov və ictimaiyyət nümayəndələri Heydər Əliyevin Siyəzən şəhərinin mərkəzində ucalan abidəsi önünə gələrək ulu öndərə öz dərin ehtiramlarını bildirmiş, abidənin önünə təzə-tər çiçək dəstələri düzmüşlər. Daha sonra rayon icra hakimiyyətinin başçısı məktəblilərlə birlikdə Siyəzən Heydər Əliyev Mərkəzinə baş çəkmiş, burada ümummilli liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotostendə baxmışlar. RİH başçısı N.Novruzov məktəblilərə Heydər Əliyev siyasətinin təntənəsindən danışmışdır və qeyd etmişdir ki, dünya tarixi sübut edib ki, şəxsiyyətlərin gücü, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Heydər Əliyev güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Ulu öndərin ən böyük gücü dərin və universal biliyində, qətiyyətində, işgüzarlığında, qeyri-adi yaddaşında, uzaqgörənliyində və müdrikliyində idi. Ulu öndər öz müdrikliyi, cəsarəti ilə Azərbaycan xalqının sevgisini qazanıb. Dahi şəxsiyyət hər zaman Azərbaycanı düşünmüş, xalqın milli maraqlarının qarantı olmuşdur. Hələ Sovetlər dövründə ölkəmizə rəhbərlik edən ulu öndər Heydər Əliyev Azərbaycanın inkişafı naminə mühüm siyasi qərarların verilməsinə nail olub. Eyni zamanda xalqın milli-mədəni dəyərlərinin qorunub-saxlanması da ulu öndərin adı ilə bağlıdır.

İMİŞLİ

Həyatını Azərbaycan dövləti və xalqı uğrunda fəda edən ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə bağlı "Sən elə bir zirvəsən" adlı ümumrayon tədbiri keçirilib.

Tədbirdə rayon rəhbərliyi, idarə və müəssisə rəhbərləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, rayon ziyalıları, ictimaiyyət nümayəndələri iştirak edirdi. Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzdülər. Vətən uğrunda şəhid olmuş oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Yeni Azərbaycan Partiyasının İmişli rayon təşkilatının sədri Səfa Ağayev dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin Vətən və xalqımız qarşısında misilsiz xidmətlərindən söhbət açdı. Qeyd etdi ki, ümummilli liderin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 44 günlük Vətən müharibəsində möhtəşəm qələbənin əldə olunması, ulu öndərin zəngin nəzəri irsinin və ideyalarının əsrlər boyu davam edəcəyini göstərir. S.Ağayev bildirdi ki, ulu öndər insanların həyat yoluna işıqsaçan təfəkkür və mənəviyyat sahibi olmaqla qəlblərdə daim yaşayacaq.

Çıxış edənlər unudulmaz şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın çətin sınaqlardan şərəflə keçdiyindən danışdılar. Qeyd olundu ki, müstəqil Azərbaycanın inkişafında Heydər Əliyevin təməlini qoyduğu konsepsiya bu gün ulu öndərin layiqli davamçısı, Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin mövcud iqtisadi inkişafı, regionda lider dövlətə çevrilməsi buna bariz nümunədir.

"Respublika".

QARS